SƏDAQƏT HÜSEYİNQIZI

# *Mənim adım Qarabağdır!*

*Ermənilər!Mənə Arsax deməyin,*
*Mənim adım Qarabağdır, Qarabağ!*
*Arsax özü türk mənşəli kəlmədir!..*
*Əsrlərin tarixinə yaxşı bax,*
*İndi,adım Qarabağdır, Qarabağ!*

*Arsax desən, göydə günəşin sönər,*
*Bağların quruyar, dönərgən dönər!*
*Bu torpaq anlamır sənin dilini,*
*Köntöv gözlərinlə mənə yaxşı bax,*
*Mənim adım Qarabağdır, Qarabağ!*

*Qarabağa indi Arsax yapışmır,*
*Arsax ilə dünya belə barışmır,*
*Mən bir türkəm, sən erməni, qarışmır.*
*Ey anlamaz, get özünü yandır, yax*
*Çünki, adım Qarabağdır, Qarabağ!*

*Vətən üçün ər igidlər vuruşur,*
*Xan Şuşdan qada-bəla sovuşur,*
*Cıdır düzüm bəylərinə qovuşur!..*
*Get yaxana qara bağla, qara tax,*
*Bil ki, adım Qarabağdır, Qarabağ!*

*Xarı bülbül Xan qızımsızdarıxır,*
*"Şikəstə"miz qıy qoparır, dağ yıxır!*
*Qrabağda yeni bir Günəş çıxır!*
*İldırım, qop, dəli şimşək, sən də çax,*
*Sübut elə, danılmazdır Qarabağ!*

*Sədaqət deyir ki, gün o gün olsun,*
*Tilsimlər qırılsın, saf-çürük olsun!*
*Türk yurdu, qoynuna türkülər dolsun,*
*Haray salasınbu cahana, Qarabağ -*
*Desin, adım Qarabağdır, Qarabağ!*

***Moskva***

İədalət.- 2020.- 11 noyabr.- S.6.